## Zərifə Əliyeva – 100

# Dünya şöhrətli oftalmoloqun xatirəsinə ehtiram



**Dünən Ədliyyə Nazirliyində dünya şöhrətli oftalmoloqun 100 illik yubileyi münasibətilə Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin Səyyar Klinikası tibbi aksiya təşkil edib.**

Aksiyanın əvvəlində bildirilib ki, Zərifə Əliyevanın yüksək ixtisaslı tibbi kadrların hazırlanmasında, oftalmoloq-həkimlərin peşəkarlığının artırılmasında rolu danılmazdır. Görkəmli alimin göz xəstəliklərinin aşkarlanması, müayinə-müalicə və diaqnostikası ilə bağlı sanballı tədqiqatları oftalmologiya elminin inkişafına mühüm töhfələr verib.

Sonra aksiyada əməkdaşların, ədliyyə orqanlarında çalışan Vətən müharibəsi iştirakçılarının və onların ailə üzvlərinin klinikanın həkim-oftalmoloqları tərəfindən oftalmoloji müayinələri aparılıb, zəruri tövsiyələr verilib.

***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2023.- 9 aprel.- S.9.